# Ədəbiyyatşünaslığımızın kamil tədqiqatçısı

## MƏMMƏD ARİF – 120



*Daycest*

**Bakı – 2024**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**
**Əkbərova Aysel**

**Ünvan:** Bakı şəhəri, S.Vurğun küçəsi 88

**Əlaqə:** (+99412) 597-08-79, (+99412) 597-09-86

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

## Həyat və yaradıcılığı

Tanınmış nasir, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, pedaqoq Məmməd Arif Dadaşzadə Azərbaycan ədəbiyyatı tarixinin yaradıcılarından biridir. O, Azərbaycan ədəbiyyatşünaslığında silinməz izlər qoymuşdur.

Dadaşzadə Məmməd Arif Məhərrəm oğlu 1904-cü il iyunun 10-da Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. Burada rus-tatar məktəbini bitirdikdən sonra bir müddət müəllimlik etmişdir. Bakı Xalq Maarifi İnstitutunda oxumuş və ADU-nun Şərq fakültəsini bitirmiş (1920-1925), Moskvada Sovet Şərq Xalqları Elmi Tədqiqat İnstitutunun aspirantı olmuşdur (1925-1928). Filologiya üzrə namizədlik (1944), doktorluq (1954) dissertasiyaları müdafiə etmiş, professor (1955) elmi adını almışdır. AEA-nın müxbir üzvü (1955) və həqiqi üzvü (1958) seçilmişdir. Azərbaycan Pedaqoji İnstitutu Rus ədəbiyyatı kafedrasının baş müəllimi, dosenti işləmiş, ADU-nun Rus ədəbiyyatı kafedrasının müdiri olmuş (1932-1938), SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi (1938-1939), direktoru (1939-1950, 1957-1959), «Vətən uğrunda» jurnalının redaktoru (1941-1945), Azərbaycan Maarif nazirinin müavini (1946) vəzifələrində çalışmışdır. Azərbaycan EA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi (1959), sonra AEA-nın vitse-prezidenti (1960-1975) olmuşdur. Azərbaycan EA Rəyasət Heyəti nəzdində Terminologiya Komitəsinin sədri (1957-1975), Azərbaycan Respublikası Ali Sovetinin sədri (1963-1967) olmuşdur.

Ədəbi fəaliyyətə 1923-cü ildə "Molla Nəsrəddin" məcmuəsi səhifələrində çıxan "Bədgüman", "Belə getsə düzələr", "Elan", "Mərsiyə xəbərləri" felyetonları ilə başlamışdır. 20-30-cu illərdə dövrü mətbuatda şeir və hekayələrlə vaxtaşırı çıxış etmişdir. Azərbaycan, rus və dünya xalqları klassik ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, müasir ədəbi proses, ədəbi-mədəni əlaqələr onun əsas tədqiqat obyekti olmuşdur. İkicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" (1943-1944), üççildlik "Azərbaycan ədəbiyyatı tarixi" (1967), "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerki"nin müəlliflərindən biridir. O, ilk dəfə «Azərbaycan sovet ədəbiyyatı tarixi»ni yazmışdır (1944). Alimin «Cəfər Cabbarlının yaradıcılıq yolu» (1956) və «Səməd Vurğunun dramaturgiyası» (1964) monoqrafiyaları, «Azərbaycan xalqının ədəbiyyatı» (1958), «Azərbaycan ədəbiyyatı tarixi» (1972) və s. kitabları milli ədəbiyyatşünaslığımızın fundamental əsərlərindəndir.

Əməkdar elm xadimi (1960), Azərbaycan Dövlət Mükafatı laureatı (1974) adına layiq görülmüş, «Lenin» ordeni (1971), iki dəfə «Qırmızı Əmək Bayrağı» ordeni (1939,1964), «Oktyabr inqilabı» ordeni (1974) və medallarla təltif olunmuşdur.

Akademik Məmməd Arif Dadaşzadə 1975-ci ildə Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Məmməd Arifin 120 illik yubileyi münasibətilə nasir haqqında fondunda mövcud olan çap əsərlərinin tam mətnli biblioqrafik siyahısını hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Məmməd Arif görkəmli şəxslər haqqında

***Məhsəti*** azadlıq və insaniyyət yolunda can qurban edən Azərbaycan qadınlarından idi. O, Gəncənin ən görkəmli şairləri ilə deyişmiş, ürəkdən qopan səmimi və mənalı rübailəri ilə qəlbləri fəth etmişdir.

***Füzulidən*** öyrənmək – mütləq qəzəl yazmaq demək deyildir. Füzulidən öyrənmək – onun kimi təmiz və ürəkdən doğan təbii hisslərlə yazmaq, onun kimi ehtirasla, sözün bütün qüvvəsi ilə yazmaq, oxuculara tam bədii bir zövq vermək deməkdir.

***Vaqif*** zəngin Azərbaycan poeziyasında elə yeni bir yol açmışdır ki, ondan sonra gələn şairlər, hətta bu günədək onun açdığı yol ilə getməkdədirlər. Vaqif poeziyasının əsas xüsusiyyəti sadəlik və xalq ruhuna yaxın olmasındadır.

***Xurşidbanu Natəvan*** xanımın qəzəllərində bir sadəlik və şuxluq, təzə ifadələr, təzə hiss və fikirlər vardır. Bu qəzəlləri onun həyatından ayırmaq olmur; hər qəzəl bir münasibət, bir hal üçün yazılmışdır. Şairənin əsərlərindəki sadəlik xalq ədəbiyyatından gəlir və onun qəzəllərinə eyni zamanda bir şirinlik verir.

***Seyid Əzim Şirvani*** istedadlı şair, müəllim və ictimai bir xadim idi. Daha doğrusu o, böyük bir xalq mürəbbisi idi.XIX əsr şeiri Seyid Əzim Şirvani ilə bitdiyi kimi, XX əsrin şeiri də onun yaradıcılığının qüvvətli təsiri ilə inkişaf etməyə başlamışdı

***Mirzə Ələkbər Sabir*** çoxəsrlik milli klassik poeziyanın bərəkətli zəminində yetişmiş və zəngin ədəbi ənənələrin ən yaxşı cəhətlərini özündə toplamış bir şair idi. Eyni zamanda o, böyük bir novator idi. Sabir poeziyanın elə yeni bir növünü yaratmışdı ki, o, böyükdən kiçiyə, çobandan mülkədaradək hamı üçün aydın və müyəssər olmuşdu. Ən çətin beynəlxalq məsələləri, ən mürəkkəb siyasi-ictimai fikirləri Sabir sadə bir şəkildə, həm də təsirli bədii misralarda ifadə edib xalq kütlələrinə çatdırırdı.

***Mirzə Fətəli Axundov*** Azərbaycan ədəbiyyatında realist dramaturgiyanı ən sağlam və nəcib bir bünövrə üzərində yaratmış və inkişaf etdirmişdir. O, dünya ədəbiyyatının və xüsusən böyük rus realist ədəbiyyatının qabaqcıl nailiyyətlərinə əsaslanaraq, gələcək nəsl üçün aydın, düzgün və zəngin ənənələr qoyub getmişdir.

***Aşıq Ələsgərin*** yaratdığı cinasların bərabəri yoxdur. Bu cinasların üstünlüyü onların təbiiliyində, sadəliyində və aydınlığındadır.

***Cəlil Məmmədquluzadə*** - "Sizi deyib gəlmişəm" – bu müraciətdə sanki ədibin bütün varlığı ifadə olunmuşdur. Ona görə ki, bu sözlərdə ədibin xalq üçün yanan ürəyi çırpınırdı. Böyük satirik bütün ümidini, arzu və idealını xalqa bağlamışdı.

***Hüseyn Cavid*** - «Xəyyam» tamaşası sənətimizin növbəti nailiyyətidir. Bu nailiyyət sevimli teatrımızın son dövr həyatında nəzərə çarpan canlanmanın gözəl bir rəmzidir.

***Cəfər Cabbarlı*** öz canlı bədii surətlərilə tamaşaçıların yalnız şüuruna, mühakiməsinə deyil, eyni zamanda hissiyyatına, emosional varlığına da təsir etməyə çalışır. Onun qəhrəmanları zəngin həyat müxtəlifliyi və rəngarəngliyi ilə, böyük qəlbləri, qüvvətli ehtirasları, dərin mühakimələri, müdrik düşüncələri ilə meydana çıxır, mübarizə edir, məğlub olur və ya qalib gəlirlər.

***Müşfiq*** əsasən lirik bir şair idi, lakin son vaxtlarda o çox həvəslə gözəl poemalar yazmağa başlamışdı. Məncə, bu, istedadlı lirik şairin yaradıcılığında yeni bir hadisə idi. O, şairlərimiz içərisində türk dilini bilməsi və dil zənginliyi etibarilə ən irəlidə gedənlərdəndir.

***Abbas Səhhətin*** lirikası əsas etibarilə realistik olmaqla bərabər, özündə sentimental-romantik elementlər daşıyırdı. O, köhnə qəsidə-qəzəl forması əleyhinə çıxarkən, poeziya üçün "hissiyati-qəlb" oyatmağı əsas şərt hesab edirdi.

***İlyas Əfəndiyev*** hər cür milli məhdudluqdan uzaq bir yazıçıdır. Ədəbiyyatımızın beynəlmiləlçilik, ümumbəşəri ideyalarına sadiq olan ədib, cəmiyyətdə müxtəlif millətlərdən olan insanların necə qardaş kimi əlbir çalışıb, xoşbəxt yaşadıqlarını dövrümüzün ən böyük nailiyyəti kimi təsvir edir.

***Səməd Vurğun*** yaradıcılığı qalib gələn Azərbaycan şeirinin həm ideya, həm də forma etibarilə böyüyüb yüksəlməsini, milyonların qəlbini və ruhunu ifadə edən qüvvətli, bədii bir silaha çevrilməsini əks etdirir.

***Elçinin*** hekayə və povestlərini oxuyanda qələmindəki özünəməxsusluğun bədii cizgiləri, əlamətləri dərhal nəzərə çarpır... Elçinin laboratoriyasında yerində istifadə oluna bilən bir çox vasitələr vardır. Hazırda keçmişi, ayıqlıqla yuxunu, həqiqətlə xəyalı, real hadisələrlə nağılı, əfsanəni yanaşı təsvir etmək, daxili dialoqlarından, öz-özü ilə söhbətdən, dramaturji səhnələrdən, mozaik parçalardan, mübaliğə, şişirtmə üsulundan istifadə etmək təsvirlərinin emosional qüvvəsini artırır, fikrimizi də bir qədər hərəkətə gətirir... Nüfuzedici bir nəzərlə uzaqlara və dərinliklərə dalmaq gözə görünən və görünməyən ara pərdələri qaldırıb əsl mahiyyəti, nüvəyə çatmaq meyili bu yazıçıya xas bir keyfiyyətdir. Adi məişət əhvalatlarını Elçin adilikdən çıxarıb xüsusiləşdirməyi, hətta qəribləşdirməyi bacarır. Buna yazıçı öz xüsusi görmə, duyma, təhlil və qiymətləndirmə məharəti ilə nail olur.

***Mir Cəlalın*** qəhrəmanları olduqca təbii, inandırıcı, koloritli bir şəkildə danışırlar... Mir Cəlal peyzajı da canlı və təbii verir. peyzaj əsərdəki hadisələrlə o dərəcədə bağlıdır ki, o, əsərin ayrıl-maz, üzvi bir parçasına çevrilir.

***Süleyman Rəhimov*** nöqsanlarımızı cəsarətlə göstərən yazıçılardandır. Onun əsərləri öz aktuallığı ilə oxucularda müsbət əks-sədalar oyadır. "Mehman" povesti də belə əsərlərdəndir.

***Osman Sarıvəllinin*** lirik şeirlərində elə bir xüsusiyyət vardır ki, dərhal başqalarından fərqlənir, özünü tanıtdırır. Bu xüsusiyyəti bir sözlə ifadə etmək istəsək, onu sadəlik adlandırmalıyıq. Geniş və dərin mənada sadəlik Osman Sarıvəllinin yaradıcılığının ən mühüm cəhətidir.

## Ədəbiyyatımız haqqında

Əlbəttə, söz - ədəbiyyatın əsas ünsürüdür; dilə, dilin dəqiqliyinə, sadə və aydın olmasına fikir vermək lazımdır. Tərcümə təcrübəsindən öyrənirik ki, Azərbaycan dilinə əsər tərcümə edərkən orijinalın bədii-ideya məzmununu tərcüməçi ancaq Azərbaycan dilinin qüdrəti sayəsində ifadə edə bilər. Tərcüməçi hökmən hər iki dili bilməlidir; lakin o dilə ki, tərcümə edir, o dili zəif bilən yazıçı heç vaxt yaxşı tərcümə əsəri yarada bilməz. Tərcüməçi Azərbaycan dilinin zəngin xəzinəsindən məharətlə istifadə etməyi bacarmalıdır. O, heç vaxt məhdud bir leksikona, kabinet lüğətinə qapanıb qalmamalıdır. Artıq isbat olunmuşdur ki, ən yaxşı tərcüməçi ana dilini yaxşı bilən və ondan bir yaradıcı kimi istifadə etməyi bacaran tərcüməçidir.

Tərcüməçilər bilirlər ki, bəzən adam axtardığı sözü, daha doğrusu, bir sözün lazım olan mənasını lüğətlərdə tapa bilmir. Lüğətlər canlı dilə nisbətən yoxsuldurlar. Lüğətlər çox vaxt sözlərin cümlə içərisindəki mənasını, o mənanın incəliyini, bədii ifadəsini qavraya bilmirlər.

Azərbaycan xalq dilində elə gözəl və incə mənalı sözlər vardır ki, tərcüməçilər onları bilmədikləri üçünmü, və ya işlətməyə cəsarət etmədikləri üçünmü, o sözlərə tərcümə əsərlərində qətiyyən rast gəlmək olmur. Beləliklə, tərcümə ədəbiyyatının dili məhdudlaşır, standartlaşır və yoxsullaşır; tərcümə dili dərhal öz quruluğu və süniliyi ilə seçilir, bir növ xüsusi tərcümə ədəbi dili yaranır. Bununla mübarizə aparmaq lazımdır.

***

Dramaturgiya ədəbiyyatın ən mürəkkəb və çətin bir janrıdır. Kim bunun əksini düşünərək özünü bu sənətə həsr etmək istəyirsə, o, hər kəsdən əvvəl özünü aldatmış olur. Yalnız həvəs və arzu ilə yaxşı dramaturq olmaq olmaz. Yorulmadan çalışmaq, tədqiq etmək, düşünmək, müşahidə etmək lazımdır. Əsrlərin ruhunu, böyük ehtiras və mənafelərin toqquşmasını, fikirlərin mücadiləsini ölməz bədii surətlərdə canlandıran dramaturqların (Şekspirin, Molyerin, Lope-de-Veqanın, Volterin, Rasinin, Şillerin, İbsenin, Ostrovskinin, Çexovun, Qorkinin) əsərlərini oxumaq, yalnız oxumaq deyil, tədqiq etmək, öyrənmək lazımdır. Biz böyük sənətdən danışırıqsa, böyük və əsaslı iş görməliyik. Yoxsa hər şeylə səthi tanışlıq, hər şeyə müxtəsər baxış, birtəhər işi yola vermək, əsəri heç olmasa bir mövsüm səhnədə görməyə tələsmək, ondan-bundan öyrənib əsərə yamamaq, əsəri bitirmədən repertuara saldırmaq böyük sənət yolu deyildir.

***

Yazıçının gəncliyi heç vaxt onun əsərlərinə qarşı tələbkarlığı əksiltməməlidir. Əksinə, yüksək tələbkarlıq gənc yazıçının inkişafı üçün ən mühüm amillərdən biridir. Ədəbiyyat tarixindən bizə məlumdur ki, böyük yazıçılar heç vaxt gənc yazıçılara qarşı az tələbkar olmamışlar.

## Tanınmış şəxslər Məmməd Arif haqqında

Məmməd Arif XX əsr Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin formalaşdırılması və inkişaf etdirilməsində böyük rol oynamışdır. Milli ədəbiyyat tarixinin yaradılmasında yaxından iştirak edən alim respublikada yüksək ixtisaslı elmi kadrların hazırlanması işinə töhfələrini əsirgəməmişdir.

***İlham Əliyev***

Vaxt olub ki, Arifin ağır günləri başlayıb. Bu çətin ömür yolunda o, ümidsizliyə qağıla bilər, işdən əli soyuyar, küskünləşə bilərdi. Lakin onun işində, hərəkətində duyulan təmkin xoş bir qibtə hissi oyadır. İndi Arif bir alim. Bir ədəbiyyat tədqiqatçısı, bir nəzəriyyəçi kimi ictimai həyatda aktiv edərkən, yenə də elədir, təmkinlidir. Keçəri, ötəri hisslərə uymayan təmkinli Arifdir.

Ədəbiyyatımızın, xüsusilə poeziyamızın bu günü və gələcəyi haqqında düşünəndə yaxşı, yeni nəyimiz varsa, ona qəhmər çıxan, yaradıcılığımızın büllurlaşmasına əngəl törədən nə varsa, ona qarşı etiraz səsini qaldıran tənqidi fikrimiz haqqında düşünəndə gözümüzün qarşısında, yeri gələndə sərt, yeri gələndə mülayim, bəzən qədərindən artıq yumşaq, nadan ya tərəddüdlü mübarizlərini əfv edə bilən, lakin prinsip xəttindən geri durmağı sevməyən Arifin obrazını görürük.

***Rəsul Rza***

Müəllim adı Məmməd Arif haqqında sadəcə bir müraciət kimi işlənmir. Məlum olduğu kimi, ədəbi müzakirə, mübahisələrdə çox müxtəlif rəylər, mülahizə və hökmdar meydana çıxır və gənclər bunlara eyni münasibət bəsləmirlər. Məmməd Arif kimi, cavanların diqqətlə dinlədiyi və izlədiyi ədəbiyyat xadimlərimiz təəssüf ki, azdır. Yalnız Azərbaycan yox, ümumən dünya ədəbiyyatını bilməsi, dediyi və yazdığına tam məsuliyyət hissinin üstünlüyü, üslubundakı təmkin, həssaslıq və ciddilik Arif müəllimin bütün yazı və çıxışlarında özünü göstərir.

***Mir Cəlal***

Məmməd Arif yazıçı və alimlərimizin böyük bir nəslinin müəllimi olmuşdur. Bu müəllimlik təkcə onun elmi-nəzəri hazırlığı və tənqidçilik məharəti ilə məhdudlaşmır. M.Arif həm də yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik insandır. Təsirə qapılmamaq, öz vicdanının səsinə qulaq asmaq M.Arifin bir təndiqçi kimi əxlaqi keyfiyyətlərini xarakterizə edir. Vətəndaşlıq duyğusu, get-gedə zənginləşən nəzəri bilik, üstəlik mənəvi təmizlik – bütün bunlar M.Arifə böyük etimad və etibar oyatmış əsas əlamətlərdir. Buna görədir ki, yazıçılarımız – qocasından cavanınadək, böyüyündən kiçiyinədək hamısı öz əsəri haqqında ilk dəfə onun fikrini bilmək, onun məsləhətlərini eşitmək istəyirlər. Əksinə, ədəbiyyatı alverə, şəxsi mənafe üçün vasitəyə çevirmək istəyənlər isə həmişə M.Arifi sevmemiş, ondan qaçmışlar. Səməd Vurğun ona “tənqidimizin vicdanı” adını təsadüfi verməmişdi.

***Kamal Talıbzadə***

Arif müəllim təkcə gənc yazıçıların yox, bütünlüklə müasir Azərbaycan ədəbiyyatının inkişafını müntəzəm izləyir, klassiklərimizin ədəbi irsinin öyrənilməsi, araşdırılması, onların çapı ilə yaxından

məşğul olurdu. Bir alim, vətəndaş kimi bu vacib ümumxalq işi onun həyatının, qaynar fəaliyyətinin əsasını təşkil edirdi.

***Hüseyn Abbaszadə***

Məmməd Arif Dadaşzadə Azərbaycan tənqid və ədəbiyyatşünaslıq elminin ağsaqqalıdır. Məmməd Arif Dadaşzadə elmi və ədəbi-ictimai fikrimizin tarixinə müdriklik və müasirlik nümunəsi kimi daxil olmuşdur. Əməkdar elm xadimi, akademik Məmməd Arif Dadaşzadənin əsərləri müstəqillik dövrü Azərbaycan ədəbiyyatının, ədəbiyyatşünaslıq elminin yeni mərhələsinin, müasir ictimai fikrimizin də inkişaf yoluna işıq salır.

***İsa Həbibbəyli***

Keçdiyiniz şərəfli yol bizim üçün də ibrətamizdir. Sizdən təkcə ədəbiyyatşünaslığı və mahir tənqidçiliyi deyil, bəlkə daha artıq həyatın keçilməmiş təlatümlü yollarında səbr və nəzakətlə, gələcəyə böyük inamla addımlamağı da öyrənmək olar. Mən, ideal insan obrazı haqqında düşünəndə qarşımda sizin təvazökar, incə təbəssüm saçan simanızı görürəm. Kim böyüklüklə sadəliyin vəhdətini görmək istəyirsə, Sizə baxmalıdır, Sizdən ibrət almalıdır.

***Şəfahət Mehdiyev***

Sizin həyat yolunuz bizim elmi nəslin ən yaxşı nümayəndələrinin xüsusiyyətlərini özündə əks etdirən bir aynadır. Həyat Sizi gülər üzlə qarşılamamışdır, keçdiyiniz yollara asfalt döşəməmişdir. Siz öz həyat yolunuzu külünglə açmısınız. Yolunuzun üstündəki daşların ən kiçik qırığını qoparıb kənara atmaq üçün saysız-hesabsız külüng vurmalı olubsunuz. Bu cəhətdən Sizin həyatınız gənclərimiz üçün ən gözəl nümunədir... Mənfur 37-ci ili Siz bir neçə dəfə yaşamışsınız... Nələr çəkmədiniz!.. Lakin Siz özünüzdə mənəvi qüvvə, mətin iradə tapıb, bütün bu dəhşətli çətinliklərə qalib gəldiniz, keşməkeşlərdən alnı açıq çıxdınız. Bu, asan iş deyildi... "Bizim Sizə ehtiyacımız çoxdur.

***Abbaz Zamanov***

"O, (M.Arif) F.Köçərlidən sonra yeganə şəxsiyyətdir ki, Azərbaycan ədəbiyyatı tarixinin ən əsas hadisə və meyilləri, inkişaf mərhələsi və qanunauyğunluqları ilə əhatə edən ədəbiyyat tarixi əsərinin müəllifidir"

***Şamil Salmanov***

## Kitabları




Seçilmiş əsərləri : 3 cilddə. C. 3. - [S. l. : s. n.], 1970. - 427 s. - kiril əlifbası ilə

3 cilddə nəşr olunan kitabın 3-cü cildində ədibin müxtəlif yazıçı və şairlər haqqında ədəbi-tənqidi məqalələri, şərhləri yer alır.

Ədəbi-tənqidi məqalələr. - Bakı : Azərnəşr, 1968. - 448 s. - kiril əlifbası ilə




Zənnimizcə, Məmməd Arif müəllimin klassika və müasirliyin əldə etdiyi ədəbi-elmi vəhdət və sintezində, habelə nəzəri estetik fikrimizə XIX əsrin 70-ci illərində Avropada təşəkkül tapmış psixoloji məktəbin (Ş.O. de Sent -Böv, R. Müller-Freyenfels, A.A. Potebnya və b.) bu və ya digər dərəcədə nüfuz etməsində böyük rolu vardır. Məmməd Arif özünün geniş miqyaslı ədəbi-elmi yaradıcılığında sənət əsərlərinin müəllifləri ilə yanaşı, ayrı-ayrı qəhrəmanların və obrazların daxili aləminə sirayət etməklə onların mənəvi-əxlaqi əlaqəsi, ruhi-psixoloji səciyyəsini verməkdə mühüm işlər görmüşdür. Bütün bu səbəblərə görə alimin yaradıcılığı Azərbaycanda sələflər və xələflərdən ibarət yaxın-uzaq nəsillərin görüşdüyü və qovuşduğu ədəbi-tənqid və nəzəri-estetik körpü hesab edilə bilər.




Əsrin oğlu : Cəfər Cabbarlının həyat və yaradıcılığı haqqında. - Bakı : Yazıçı, 1979. - 136 s. - kiril əlifbası ilə

Kitab Cəfər Cabbarlının həyat və yaradıcılığına həsr olunub. Kitabda "Ailə və məktəb", "İlk addımlar", Böyük sovet dramaturqu" və b. bölmələr var.

Sənətkar qocalmır. - Bakı : Yazıçı, 1980. - 368, [1] s. - kiril əlifbası ilə

Bu kitaba akademik Məmməd Arif Dadaşzadənin 1966-1975-ci illərdə yazdığı, dövrü mətbuatda və elmi nəşrlərdə çap etdirdiyi məqalələrin müəyyən hissəsi daxildir.
Məqalələrdə Azərbaycan sovet ədəbiyyatı və tənqidinin bəzi mühüm problemləri araşdırılmış, bir sıra klassik və müasir Azərbaycan ədiblərinin, habelə rus ədəbiyyatı klassiklərinin portreti verilmişdir. Oxucular kitabda müəllifin teatr sənəti ilə əlaqədar mülahizələri ilə də tanış ola bilərlər.



## Məqalələri kitablarda




Ağ limanlar və qırmızı gəmilər // Ziyalı sənətkar : məqalələr. - Bakı : MBM, 2012. – S. 44-49.

Kitabda xalq yazıçısı Anar haqqında müxtəlif vaxtlarda dövri mətbuatda çap olunmuş məqalələr toplanmışdır.

Şair və zaman // Bir əsrlik Nəsimi araşdırmaları. - Bakı : Elm və Təhsil, 2019. – S. 593-606.

2019-cu ildə Şərq dünyasının mədəniyyət tarixində özünəməxsus yeri olan İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam oldu. Nəsimi irsinin dərindən araşdırılmasının və eləcə də təbliğinin xüsusi əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 yanvar tarixli Sərəncamına əsasən bu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilmişdir. Bu məqsədlə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu idarəsi "İllik Tədbirlər Planı" tərtib etmiş, il ərzinə plana uyğun olaraq müxtəlif formatlı layihələri reallaşdırmış, elmi-praktik seminarlar və konfranslar keçirmişdir. Nəticə etibarilə respublikamızın tanınmış nəsimişünas alimləri, müasir türk şərqşünasları və klassik tədqiqatçılar tərəfindən yazılmış elmi əsərlərdən ibarət irihəcmli "**Bir əsrlik Nəsimi araşdırmaları**" adlı kitab ərsəyə gətirilmişdir.



## Haqqında kitablarda




**Abbaszadə H**. Təmiz vicdanla : Məmməd Arif Dadaşzadə haqqında // Nurdan yoğrulmuşlar. - Bakı : Avrasiya Press, 2008. - S. 300-310.

Bu kitabda xalqımızın görkəmli ədəbiyyat və incəsənət xadimlərinin bir qismi haqqında xatirələr daxil edilmişdir.

**Azadə R.** Məmməd Arif və klassik ədəbi irsimiz // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri: I kitab.- Bakı : Elm, 2006. - S. 24-28.

**Əliyeva İ.** Məmməd Arif və Azərbaycan poeziyası // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri: I kitab.- Bakı : Elm, 2006. – S. 96-103.

**Rəhimova E.** Məmməd Arifin tərcüməçilik fəaliyyəti // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri: I kitab.- Bakı : Elm, 2006. – S. 296-300.

XX əsr Azərbaycan poeziyasının klassiki Səməd Vurğunun yaradıcılığı fonunda ötən əsrin poetik irsinin hadisə və şəxsiyyətləri, onların müasir dərkinin nəzəri-estetik problemləri məcmuədə toplanmış məqalələrin təhlil obyektidir.






Məmməd Arif // Müasir Azərbaycan ədəbiyyatı : dərslik : C. 1. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 472-482.

BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müəllim kollektivi tərəfindən yazılmış bu dərslikdə müasir Azərbaycan ədəbiyyatının ayrı-ayrı dövrlərinin şeir, nəşr, dramaturgiya, tənqid və ədəbiyyatşünaslığa dair elmi-nəzəri icmallar və onları tamamlayan portretlər verilmişdir. Dərslik ali məktəblərin filologiya fakültəsi tələbələri üçün nəzərdə tutulmuşdur.

**Mir Cəlal**. Məmməd Arif // Publisistika (1926-1977). - Bakı : Zərdabi-Nəşr, 2018. – S.150-151.

Milli Kitabxana Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair tanıtım nəşrləri layihəsinin icrasına başlamışdır. Bu layihəyə əsasən görkəmli şəxsiyyətlərin, alim və ziyalıların heç zaman çap olunmayan əsərləri, habelə onların dünyada tanıdılmasına xidmət edən bioqrafik materialların nəşri nəzərdə tutulur. Həmin seriyadan oxuculara təqdim olunan bu nəşrdə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı ədib, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin indiyədək ayrica kitab şəklində çap olunmayan publisistik məqalələri ilk dəfə küll halında toplanaraq oxuculara və tədqiqatçılara təqdim olunur.






**Əfəndiyev Ə**. Məmməd Arif // Azərbaycanın laureat yazıçıları. - Bakı : Yazıçı, 1984. – S. 26-33. – kiril əlifbası ilə

Kitaba daxil olan materiallar müəlliflərin anadan olduqları illərə görə xronolji qaydada qruplaşdırılmışdır. Hər bir yazıçı haqqında müstəqil fəsil ayrılmış, burada müəllifin həyat və yaradıcılığına dair qısa bioqrafik məlumatla yanaşı, mükafat almış əsər və onun haqqında yazılmış nəzəri-tənqidi məqalələrin biblioqrafik siyahısı verilmişdir. Oxucuda daha geniş təsəvvür yaratmaq məqsədi ilə siyahıya laureat əsərlərdən əlavə, yazıçının yaradıcılığı üçün səciyyəvi olan bir sıra başqa əsərlər və müəllif haqqında çıxmış materiallar da daxil edilmişdir.

**Yusifli V.** Məmməd Arif fəhmi // Bu nə sehrdir belə : Elçin haqqında əlli altı söz. - Bakı : Elm, 1999. – S. 57 – 58.

Filologiya elmləri namizədləri Vaqif və Cavanşir Yusifli qardaşlarının “Bu nə sehrdir belə” (“Elçin haqqında əlli altı söz”) kitabı Xalq yazıçısı, görkəmli nasir, dramaturq və ictimai xadim Elçinin həyat və sənət yoluna həsr olunmuşdur. Müəlliflər bu kitabda Elçini – müasir Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, dramaturq, tənqidçi-ədəbiyyatşünas-publisist kimi təqdim edir, onun əsərlərinin ədəbiyyatımız üçün bədii-estetik dəyərindən söz açırlar.



## Dövrü mətbuatda


**Abbaslı T**. Bir neçə "uzun illər..." // Mədəniyyət. - 2014. - 8 avqust. - № 60. - S. 12.

**Ağabalayeva S**. Yüz ilin birinciləri : Məmməd Arif Dadaşzadə. 10.06.1904 - 27.12.1975 // Azərbaycan : jurnal. - 2023. - № 8. - S. 150-154.

Akademik Məmməd Arifin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Respublika. – 2014. – 16 aprel. – S. 1.

Arif müəllim yad olundu // Ədəbiyyat qəzeti. – 2004. – 18 iyun. – S. 2.

**Azəri L**. Ədəbi tənqid məktəbi yaradan alim : Məmməd Arif - 100 // Mədəniyyət. - 2014. - 11 iyun. - № 44. - S. 11.

**Bayramov A**. Fikir dramları müəllifi akademik Məmməd Arifin qələmində : Məmməd Arif - 110 // Mədəniyyət. - 2014. - 25 iyul. - № 57. - S. 11.

**Dadaşzadə A.** Ədəbi tənqid və ədəbiyyatşünaslıq elminin korifeyi : Məmməd Arif haqqında // Respublika. - 2014. - 10 iyun. - № 121. - S. 6.

**Dadaşzadə Z**. "Nəhəng olan uzaqdan daha aydın görünər..." : Tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, pedaqoq, nasir Məmməd Arifin yaradıcılığı haqqında // Azərbaycan : jurnal. - 2015. - № 1. - S. 133-144.

**Elsevər S**. Arif və vaqif Məmməd Arif : Xalqına və vətəninə xidmət etmək istəyən hər kəs bu böyük alimin yolu ilə getməlidir // Kaspi. - 2016. - 6 yanvar. - № 1. - S. 10.

**Əliyev R**. Müdrik alim və ədib : Məmməd Arif - 110 // Azərbaycan. - 2014. - 11 sentyabr. - № 197. - S. 10.

**Əsgərli Z.** Azərbaycan dramaturgiyasının kamil tədqiqatçısı // Azərbaycan müəllimi. – 1999. – 9-15 sentyabr. – S. 8.

**Həbibbəyli İ**. Müdriklik və müasirlik : Akademik Məmməd Arif Dadaşzadə - 110 // Azərbaycan. - 2014. - 1 oktyabr. - № 214. - S. 9.

**Hüseynoğlu S**. Ədəbiyyatımızın vicdanı nəvə yaddaşında // Ədəbiyyat qəzeti. – 2004. – 18 iyun. – S. 2-3.

**Mikayılov Ş**. Nəsillərin müəllimi Arif müəllim : Məmməd Arif Dadaşzadə - 110 // Azərbaycan Müəllimi. - 2014. - 9 may. - № 17. - S. 9.

**Mirəhmədov Ə**. Arif müəllim // Ədəbiyyat qəzeti. – 1997. – 18 iyul. – S. 6-7.

**Mirəhmədov Ə**. Arif müəllim // Ədəbiyyat qəzeti. – 2000. - 7 yanvar. – S. 1.

**Salmanov Ş**. Tənqidi fikir yüksəkliyindən // Ədəbiyyat qəzeti. – 2004. – 18 iyun. – S. 2-3.

**Səttarlı L**. Məmməd Arifin 100 illik yubileyi Xızıda qeyd olundu // Azərbaycan. – 2004. – 3 noyabr. – S. 8.

**Yusifli V**. Ədəbiyyatımızın vicdanı : Ədəbiyyatşünas alim Məmməd Arif Dadaşzadə haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 17 oktyabr. - № 54. - S. 11.

**Yusifli V**. Tənqidimizin vicdanı : Məmməd Arif - 100 // Azərbaycan: jurnal. - 2014. - № 7. - S. 118-122.

**Yusifli V**. Tənqidimizin vicdanı : tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, nasir, pedaqoq Məmməd Arif haqqında // Kaspi. - 2014. - 22 fevral. - № 32. - S. 15.